# Səflərinizi düzəldin, çünki, səflərin düzlüyü namazın kamilliyindəndir

Ənəs bin Məlikdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Səflərinizi düzəldin, çünki, səflərin düzlüyü namazın kamilliyindəndir"

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz qılanlara səflərini düzəltməyi, bir-birindən qabağa keçməmələrini və geri durmamalarını əmr edir və səfləri düzəltməyin namazın tamamlanması və kamilliyinin bir hissəsi olduğunu, sıranın əyriliyinin isə namazda olan qüsur və ya çatışmazlıq olduğunu xəbər verir.

http://www.sunnah.global/hadeeth/az/show/3031